Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dosenti Əzizağa Quliyev bir teatr pedaqoqu kimi intellektual səviyyəsi, geniş biliyi, yüksək mədəniyyəti və mənəvi zənginliyi ilə yalnız müəllim və tələbələrin deyil, həm də professional aktyor və rejissorların dərin hörmətini qazanıb.

"Müəllim sözü ona görə xoşa gələn, ürəyə yatan və könül oxşayandır ki, o, azdırıcı yox, yol göstəricidir, çaşdırıcı yox, öyrədicidir". On üçüncü yüzilliyin şair və filosofu Şəms Təbrizinin bu müdrik kəlamı çox yaxşı tanıdığımız, şəxsiyyətinə böyük hörmət bəslədiyimiz, gözəl və xeyirxah insan, sevimli müəllimimiz Əzizağa Quliyevə birbaşa aiddir.

Əzizağa müəllimin 43 illik elmi-pedaqoji fəaliyyəti çox zəngin və məhsuldar olmuşdur. Belə ki, o, bir tərəfdən aktyor və rejissor kadrları yetişdirmiş, digər tərəfdən elmi-tədqiqatla məşğul olaraq dəyərli vəsaitlər və dolğun məzmunlu məqalələr yazıb çap etdirməklə tədris prosesinin keyfiyyətini daha da yaxşılaşdırmağa öz töhvəsini vermişdir.

1962-ci ildə M.Əliyev adına Teatr İnstitutunu fərqlənmə diplomu ilə bitirən Ə.Quliyevin elmi-pedaqoji sahədə əldə etdiyi müvəffəqiyyətlər Moskvada pedaqoji aspiranturanı uğurla başa vurduqdan sonrakı dövrə təsadüf edir.

1971-ci ildə onun ixtisas fənlərindən "Səhnə danışığı"nın əsas bölmələrindən birinə aid "Diksiya və bəzi metodik göstərişlər" vəsaiti çap olunur. "Səhnə danışığı" fənninin tədrisinə dair Azərbaycan dilində ədəbiyyatın olmadığı bir zamanda bu vəsaitin meydana gəlməsi həm tələbələr, həm də müəllimlər üçün faydalı oldu.



*O, 65 illik ömrünün 43 ilini elmi-pedaqoji işə sərf edərək respublikamız üçün yüksək ixtisaslı aktyor və rejissor kadrları hazırlamaqla xalqa xidmət etməyi özünə şərəf sayır.*

Əzizağa müəllimin pedaqoji və elmi fəaliyyəti paralel getdiyindən o, həmin vəsaitdən sonra səhnə danışığının elmi-nəzəri, eləcə də tədris-metodiki məsələlərinin araşdırılmasına həsr olunmuş bir sıra diqqətəlayiq vəsait və məqalələr çap etdirir. Bunlardan "Mətn üzərində iş", "Orfoepiyaya dair metodik göstərişlər", "Diksiya səhnə danışığının təsirli ifadə vasitələrindən biri kimi", "Səhnə danışığı və onun tədrisi haqqında", "Yanıltmaclarla danışıq texnikasının təkmilləşdirilməsi", "Təmsil üzərində aparılan işin aktyor tərbiyəsində əhəmiyyəti", "Səhnə danışığına dair metodik göstərişlər" vəsaitlərini "Dil mədəniyyəti", "Qobustan", "Ana sözü", "Mədəniyyət dünyası" kimi məcmuə və jurnallarda çap etdirdiyi, "Vahid ədəbi tələffüzə nail olaq", "Səhnə tələffüzündə dialekt ünsürləri", "Səhnə və tələffüz", "Fikri aydın çatdıraq", "Azərbaycan teatr pedaqoqları haqqında", "Yanıltmaclar və onların aktyor tərbiyəsində rolu", "Aktyorun nitq mədəniyyəti", "Şagirdlərə ifadəli oxu necə öyrədilməlidir", "Aktyorun səhnə danışığı", "Diksiya haqqında", "Səhnə danışığı və məntiqi təhlil" və s. məqalələrini göstərə bilərik.

Bu da əlamətdardır ki, Əzizağa müəllim digər ixtisas fənlərinin ("aktyor sənəti", "rejissorluq") tədrisinin keyfiyyətini yüksəltməyin qeydinə qalaraq 1979-cu ildə "Stanislavski məktəbi əsasında aktyor tərbiyəsi" (Q.Kristi), 1984-cü ildə isə N.Sadıqzadə ilə birlikdə "Aktyor və rejissor sənəti" (B.Zaxava) dərs vəsaitlərini tərcümə edərək onların nəşrinə nail olur. Həmin fundomental dərs vəsaitləri hazırda tədris prosesinin elmi əsaslar üzərində qurulmasında, aktyor və rejissor sənətinin dərindən mənimsənilməsində tələbə və müəllimlərin stolüstü kitablarına çevrilməklə yanaşı elmi işlərin, dissertasiyaların yazılmasında da əsas mənbələr kimi istifadə edilməkdədir.

Ə.Quliyevin Sank-Peterburq şəhərində keçirilən V.Yaxontov adına tələbə-bədii qiraətçilər müsabiqəsindəki uzunillik səmərəli fəaliyyətini xüsusi qeyd etməliyik. Keçmiş İttifaq miqyasında keçirilən həmin müsabiqəyə hazırlıqla əlaqədar universitetimizdə (o zaman institut idi) seçmə turunun təşkilində, tələbə-ifaçıların seçilməsində onun zəhməti böyükdür. O, Sankt-Peterburqda (keçmiş Leninqradda) çıxış etməyə yollanan tələbə qrupuna dəfələrlə rəhbərlik etmiş, müsabiqənin münsiflər heyətinin üzvü seçilmişdir. Yeri gəlmişkən qeyd etmək istərdik ki, belə əhəmiyyətli müsabiqədə çıxış etmək bizə də nəsib olmuşdur. Sevimli müəllimimiz bizi belə möhtəşəm yarışa ruhlandırmış və yüksək professional səviyyədə hazırlamışdı. Nəticədə biz hər ikimiz müxtəlif illərdə (1975 və 1990) adı çəkilən müsabiqənin laureatı olmuşuq.

1980-ci ilin aprelində müsabiqəni keçirən Leninqrad Dövlət Teatr, Musiqi və Kinematoqrafiya İnstitutunun rektoru vaxtilə universitetimizin rektoru olmuş mərhum akademik A.Aslanova göndərdiyi məktubda müsabiqənin münsiflər heyətinin işində və V.Yaxontov adına bədii-qiraətçilər müsabiqələrinin yekunları və perspektivləri, habelə səhnə danışığı problemləri üzrə metodik müşavirədə fəal iştirakına görə Əzizağa müəllimə xüsusi təşəkkürünü bildirmişdi.

Ə.Quliyev uzun illər (1989-2001) "Səhnə danışığı" kafedrasına rəhbərlik etmişdir. Bu illər kafedranın sürətlə inkişaf etdiyi dövr, elmi-tədqiqat, tədris-metodiki və yaradıcılıq-ifa işlərinin hazırlanmasında, onların səviyyəsinin yüksəldilməsində dönüş dövrüdür. Demək olar ki, bütün müəllimlər tələbələr üçün metodik göstərişlərin tərtibinə cəlb olunmuşlar. Açıq dərslərin keçirilməsi və obyektiv müzakirəsi, elmi-seminarların təşkili müntəzəm xarakter almış, görkəmli alim və aktyorlarla görüşlər səhnə danışığının tədrisi metodikasının təkmilləşdirilməsinə öz müsbət təsirini göstərmişdir.

Məhz Ə.Quliyevin Səhnə danışığı kafedrasına başçılıq etdiyi dövrdə kafedrada tədris edilən bütün fənlərə aid proqramlar işlənib çap olunmuşdur. Əzizağa müəllim ya onların tərtibçisi, yaxud redaktorudur. Həmin proqramlar hazırda "Səhnə danışığı", "Sözlə iş görmə", "Danışıq texnikası", "Nitq mədəniyyəti", "Televiziyada danışıq", "Natiqlik sənəti" fənlərinin tədrisində elmi əhəmiyyət kəsb edir.

Ə.Quliyev qarşıya qoyduğu məqsədi - xalqa xidmət etmək vəzifəsini 43 illik elmi-pedaqoji fəaliiyyəti ərzində fəal sürətdə həyata keçirmiş, Azərbaycan teatr mədəniyyəti üçün S.Məmmədova, C.Əkbərov, Y.Nuriyev, E.Novruzov, Z. Ağakişiyeva, N.vəQ.Quliyevlər kimi xalq artistləri; S.Quliyeva, Ə.Nurzadə, K.Abdullayev, P.Bağırov, M.Xanlarova, R.İbrahimov, Ə.Hüseynov kimi əməkdar artistlər yetişdirmişdir. Onların bir qismi Prezident təqaüdünə və ya mükafatına layiq görülmüşdür. Bu Əzizağa müəllimi fərəhləndirir, səmərəli fəaliyyətini davam etdirmək üçün ona yeni qüvvə və ilham verir.

65 yaşına qədəm qoymasına baxmayaraq Əzizağa müəllimin yaradıcılıq enerjisinin tükənməzliyinə bir çox gənc müəllimlər qibtə edə bilərlər. Hazırda o, Azərbaycanda ilk dərslik olacaq, tələbə və müəllimlərin səbirsizliklə gözlədiyi "Səhnə danışığı" üzərində işini davam etdirir.

Nikbin ruhlu, geniş ürəkli təvazökar və səmimi insan olan Ə.Quliyev gələcəyə inamla baxır. Yadımıza görkəmli şairimiz B.Vahabzadənin aşağıdakı misraları düşür:

*Qərinələr, əsrlər*
*Hey dolanıb dönsə də,*
*Min qapı bağlansa da,*
*Min-min ocaq sönsə də,*
*Qarşıda gələcək var,*
*Hər müşkülü o açar.*

Hörmətli Əzizağa müəllimi anadan olmasının 65 illiyi münasibətilə təbrik edən, ona möhkəm can sağlığı və uğurlar arzulayan:

**_Kəmalə Mehdiyeva,_**
**_Nadir Hüseynov,_**
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin baş müəllimləri*